**AZƏRBAYCAN RESPUBLİKASI**

*Əlyazması hüququnda*

# ELMİRA ŞAHTAXTİNSKAYA YARADICILIĞINDA AZƏRBAYCAN BƏDİİ ƏNƏNƏLƏRİNİN VƏ VƏTƏNPƏRVƏRLİK İDEYALARININ TƏCƏSSÜMÜ

İxtisas: 6215.01 – Təsviri sənət

Elm sahəsi: Sənətşünaslıq

İddiaçı: **Aysel Mahir qızı Məmmədəliyeva**

Fəlsəfə doktoru elmi dərəcəsi
almaq üçün təqdim edilmiş dissertasiyanın

**AVTOREFERATI**

**BAKI – 2022**

Dissertasiya işi Azərbaycan Dövlət Rəssamlıq Akademiyasının "İncəsənət tarixi" kafedrasında yerinə yetirilmişdir.

Elmi rəhbər: sənətşünaslıq üzrə fəlsəfə doktoru, dosent
**Gülrəna Əlixan qızı Mirzə**

Rəsmi opponentlər: Xalq rəssamı, professor
**Səlhab İsa oğlu Məmmədov**

sənətşünaslıq üzrə fəlsəfə doktoru, dosent
**Fəridə Altay qızı Mir-Bağırzadə**

sənətşünaslıq üzrə fəlsəfə doktoru
**Gülnarə Zeynal qızı Apaydın**

Azərbaycan Respublikasının Prezidenti yanında Ali Attestasiya Komissiyasının Azərbaycan Dövlət Rəssamlıq Akademiyasının nəzdində fəaliyyət göstərən FD 2.34 Dissertasiya şurası

Dissertasiya şurasının sədri: Xalq rəssamı, professor
**Fuad Məmməd-Emin oğlu Salayev**

Dissertasiya şurasının elmi katibi: sənətşünaslıq üzrə fəlsəfə doktoru, dosent
**Xanım Zəlimxan qızı Əsgərova**

Elmi seminarın sədri: Xalq rəssamı, professor
**Natiq Kamal oğlu Əliyev**

## İŞİN ÜMUMİ SƏCİYYƏSİ

**Mövzunun aktuallığı və işlənmə dərəcəsi.** Azərbaycan təsviri sənətinin formalaşmasında və inkişafında görkəmli rəssamlarımızın əvəzsiz xidmətləri olmuşdur. Bu sahədə təsviri sənətin görkəmli rəssamlarından olan, həyatını Azərbaycanın milli dəyərlərinə həsr etmiş Xalq rəssamı Elmira Şahtaxtinskayanın adını xüsusi olaraq qeyd etmək lazımdır.

Elmira Şahtaxtinskaya Azərbaycan incəsənətinin inkişafında böyük istedada, fəal yaradıcılıq həvəsinə malik, həyatın mənasını yaradıcılıqda tapan bir sənətkar idi. Milli iftixar hissi onun əsərlərindən həmişə qırmızı xətlə keçirdi. Onun əsərləri doğma vətəni ilə yanaşı xarici ölkələrin muzey, qalereya və şəxsi kolleksiyalarında saxlanılır.

Elmira Şahtaxtinskayanın yaradıcılığı, təsviri sənətimizin milli özünəməxsusluğunun öyrənilməsinin və yaradıcılıq baxımdan dərk olunmasının ən gözəl nümunəsidir. Elmira Şahtaxtinskaya təbiət, insan və həyat vurğunu idi. O, canlı təbiətlə daim təmasda olub və təbiətin füsunkar gözəlliyindən ilhamlanaraq duyğularını rəngli boyalarla öz əsərlərində canlandırırdı. Gözəllik aşiqi – rəssamın əsərlərinin tamaşaçılara canlı təsir bağışlamasının səbəbi də elə budur.

Rəssamın plakat və dəzgah rəsmlərindəki zəngin rəng qamması həmin əsərlərin rəngkarlıq psixoloji portret tərzində həll edildiyini təsdiq edir. XX əsrin 70-ci illərində "Azərbaycan qədim mədəniyyət ölkəsidir" plakat silsiləsini, Azərbaycanın elm, ədəbiyyat və incəsənət xadimlərinin portretlər qalereyasını, dəzgah rəsmləri və akvarellərindən "Çexoslovakiyada", "Sosialist Bakısı" seriyası, "Bolqarıstanda", "Qutablar" və "Novruz bayramı" tablolarını yaratmışdır. Elmira Şahtaxtinskayanın əsərləri dünyanın hər bir yerində – Paris (Pompidu Mərkəzi), Moskva, Kaunas, Stokholm, Berlin, Amsterdam və s. şəhərlərdə nümayiş etdirilmişdir. 1967-ci ildə Kaunasda, 1978 və 1989-cu illərdə Bakıda, 1979-cu ildə Naxçıvanda, 1988-ci ildə Moskvada fərdi sərgiləri keçirilmişdir.

Rəssamın yaradıcılığında sülh və xalqlar dostluğu, əmək mövzusu əhəmiyyətli yer tutur. E.Şahtaxtinskayanın uzun axtarış

illərinin nəticəsi və eyni zamanda yaradıcılığının əsas mövzusu olan 70-ci illərdə yaratdığı "Azərbaycan qədim mədəniyyət ölkəsidir" adlı seriyasında Azərbaycanın orta əsrlərdə yaşayıb yaratmış elm və mədəniyyət xadimlərinin (Nəsirəddin Tusi, Məhsəti Gəncəvi, İmadəddin Nəsimi, Məhəmməd Füzuli, Əcəmi Naxçıvani, Soltan Məhəmməd və başqaları), 70–80-ci illərdə isə müasir sənətkarların (Üzeyir Hacıbəyli, Hüseyn Cavid, Səməd Vurğun, Səttar Bəhlulzadə, Qara Qarayev, Fikrət Əmirov və başqaları) portretlərini yaratmışdır. Bu seriyada plakat aktual, proklamasiya növündən maarifçilik, təlim-tərbiyə, idrak vasitəsinə çevrilir. O, tarixiləşir, informasiya ilə zənginləşir. Bu seriya sanki Azərbaycan xalqının tarixinin, mədəniyyətinin, onun dünya mədəniyyətinə töhfələr vermiş ən məşhur nümayəndələrinin təsviri ensiklopediyası oldu.

Elmira Şahtaxtinskayanın yaradıcılığı postsovet məkanında da yüksək qiymətləndirilmişdir. K.Kərimov[1], M.Nəcəfov, N.Həbibov, M.Tərlanov, P.Hacıyev, S.Bədəlova, G.Qacar və başqaları rəssamın müxtəlif illərdə sərgilərdə nümayiş etdirilən portret və qrafika əsərlərində ifadə olunan məna çalarlarından vaxtaşırı mətbuat orqanlarında söz açmışlar. Elmira xanımın yaradıcılığı müasir dövr sənətşünasların diqqətini cəlb edir. Telman İbrahimov “Azərbaycanda plakat sənəti” adlı kitabında, Xanım Əsgərova “Azərbaycanda qadın rəssamları” adlı dissertasiya işində görkəmli rəssamın yaradıcılığına nəzər salmışlar.

Elmira Şahtaxtinskayanın yaradıcılığı mövzu və janr rəngarəngliyi, fərdi üslub və metodları ilə seçilir. O, daim yeni bədii təsvir vasitələri axtarır, yeniliyə can atır, ifadə tərzi ilə diqqəti cəlb edir. Onun plakat, mənzərə və portret janrında yaratdığı əsərləri zənginliyi ilə yadda qalır. Obrazlarını yaratdığı şəxsiyyətlərin həyat və məişətinə, dünyagörüşünə, düşüncə tərzinə özünəməxsus baxışı Elmira Şahtaxtinskaya əsərlərinin dəyərini artırır, bu əsərləri seyr edən tamaşaçının ürəyində dərin izlər buraxır. Fərdi qabiliyyəti və istedadı, məqsədyönlü axtarışları, özünəməxsus emosional və orijinal təsvir vasitələri Elmira Şahtaxtinskayanın Azərbaycan incəsənət tarixində xüsusi yer tutan, çoxsaylı əsərlər yaratmasına gətirib çıxarmışdır.

---

[1] Kərimov K. Şahtaxtinskaya Elmira/ K.Kərimov. kataloq. Bakı: 1989.

Beləliklə, Xalq rəssamı Elmira Şahtaxtinskayanın bədii irsinin bütövlükdə, hərtərəfli, küll halında tədqiq edilməsi və bu problemin elmi-nəzəri kontekstdə araşdırılıb fundamental iş şəklində təqdim olunması aktual məsələ kimi müəyyənləşdirilmişdir.

Elmira Şahtaxtinskayanın səmərəli yaradıcılığı hər zaman dövlət tərəfindən dəyərləndirilmişdir. Rəssam "Şərəf nişanı" ordeni ilə təltif edilmiş, 1963-cü ildə Azərbaycan SSR Əməkdar İncəsənət xadimi, 1977-ci ildə isə Azərbaycan SSR Xalq rəssamı fəxri adına layiq görülmüşdür.

Elmira Şahtaxtinskayanın yaradıcılığı Azərbaycan təsviri sənətinin inkişafı ilə sıx bağlı olduğu üçün onun yaradıcılığının elmi tədqiqatına böyük ehtiyac duyulur. Belə ki, rəssamın müasir Azərbaycan təsviri sənətinə gətirdiyi töhfənin müəyyən olunması gənc rəssamlar nəslinin formalaşması və inkişafında mühüm əhəmiyyət kəsb edir. Məsələyə məhz bu kontekstdən baxılması tədqiqatın böyük aktuallıq kəsb etdiyini göstərir.

XX əsr Azərbaycan təsviri sənətindən söhbət açan tədqiqatçıların əksəriyyəti Elmira Şahtaxtinskayanın yaradıcılığına diqqət yetirmiş, onun yaradıcılığı ilə bağlı xeyli araşdırmalar aparmışlar. Elmira Şahtaxtinskayanın yaradıcılığı daima sənətsevərlərin və mütəxəssislərin diqqətini özünə cəlb edib. Onun yaradıcılığı haqqında informasiyaya bir çox mətbuat orqanlarında, internet saytları və televiziya verilişlərində, həm rus, həm də Azərbaycan dilində bir çox yazılara rast gəlmək olar. Xalq rəssamı Elmira Şahtaxtinskayanın və onun yaradıcılığı haqqında müxtəlif dövrlərdə dövri mətbuatda çoxsaylı məqalələr yazılmışdır. Bu mənada Z. Balaşovun[2], Ş. Ələsgərovanın[3], R. Mehdiyevin[4], N. Həbibovun[5], M. Nəcəfovun[6], S. Bədəlovanın[7] məqalələrini və s.

---

[2] Balaşov Z. Mahir plakatçı rəssam. // – Bakı: "Azərbaycan qadını" jurnalı, – 1984. №11, – s. 5.

[3] Ələsgərova Ş. Rəsmlərdə dil açan arzular // – Bakı: "Qobustan" jurnalı, – 1977. №2, s. 47-50.

[4] Mehdiyev R. Həvəs və məhəbbət olanda // "Ədəbiyyat və incəsənət". – 1978, 8 aprel. – s. 5.

[5] Həbibov N. Rəssamın yeni obrazları // "Ədəbiyyat və incəsənət". – 1976, 3 aprel. – s.2

[6] Nəcəfov M. Rəsm əsərlərimiz Moskvada. // "Kommunist". – 1978, 18 avqust.

qəzet məqalələrini qeyd etmək olar. Bu məqalələrdə rəssamın xarici səfərlərində yaratdığı əsərlər, müxtəlif mövzulu plakatları, tarixi və müasir şəxsiyyətlərə həsr etdiyi portertlər xüsusilə diqqət mərkəzində olmaqdadır.

1963-cü ildə sənətşünas-alim Məmmədağa Tərlanov Elmira Şahtaxtinskayanın əsərlərindən ibarət buklet[8] nəşr etdirmişdir. Bu dövrdə Elmira xanım sənətə yeni başladığı üçün yaradıcılığında plakatları üstünlük təşkil edirdi. Lakin daha sonrakı dövr üçün onu plakatçı-rəssam kimi tanıtmaq düzgün yanaşma deyil.

Bundan əlavə Sovet dövründə, həm Bakıda, həm də Moskvada milli adət-ənənələrimizi əks etdirən "Qutab bişirən qadınlar" mövzulu açıqcalar nəşr edilirdi.

Ümummilli lider Heydər Əliyev tərəfindən Elmira xanımın vəfatından sonra onun xatirəsini əbədiləşdirmək üçün kitab nəşr olunması barədə sərəncam verilmişdi. Bu işin yerinə yetirilməsi sənətşünas Gülrəna Mirzə Qacara həvalə olundu.

2001-ci ildə "XXI Yeni Nəşrlər Evi" nəşriyyatında Azərbaycan Respublikası Prezidenti Heydər Əliyev cənablarının göstərişinin nəticəsi olaraq 176 səhifəlik kitab nəşr olunmuşdur. Bu müstəqil Azərbaycanda rəssamlığa həsr olunan ilk monoqrafiya idi[9]. 2000-ci ildə vəfatından sonra Azərbaycan Milli İncəsənət Muzeyində Elmira Şahtaxtinskayanın 70 illiyinə həsr olunmuş təntənəli sərgisi keçirilmişdir.

2013-cü ildə Ulu öndər Heydər Əliyevin 90 illiyinə həsr olunan "Sərvət" seriyasında Gülrəna Mirzə Qacarın müəllifliyi ilə Elmira Şahtaxtinskayanın yaradıcılığına həsr olunmuş "Şərq-Qərb" Nəşriyyat Evinin 104 səhifəlik kitabı işıq üzü görmüşdür[10].

Lakin rəssam haqqında sənətşünaslıq baxımından əsaslı şəkildə əhatəli araşdırılmış elmi iş yazılmamışdır. Yuxarıda qeyd edilən araşdırmalar Xalq rəssamı Elmira Şahtaxtinskayanın yaradıcılığını

---

[7] Bədəlova S. Qrafika sənətinin maraqlı forması. // – Bakı: "Mədəni-maarif işi" jurnalı, – 1974. №1, – s. 42-43.

[8] Tərlanov M., Əfəndiyev R. Azərbaycan sovet qrafikası. Bakı: 1963. 24 s.

[9] Qacar G. Elmira Şahtaxtinskaya / G.Qacar. – Bakı: XXI Yeni Nəşrlər Evi, – 2001. – s. 173.

[10] Qacar G. Elmira Şahtaxtinskaya. / G.Qacar – Bakı: "Şərq-Qərb", – 2013. – 104 s.

tam əhatə etmədiyindən onun yaradıcılığının tədqiqi məsələsi problematik səciyyə kəsb edir. Digər tərəfdən, müasir Azərbaycan təsviri sənətinin inkişaf prosesində istedadlı rəssam Elmira Şahtaxtinskayanın çoxşaxəli və əhatəli yaradıcılığının bütün istiqamətlərinin mərhələlərlə öyrənilməsi, tədqiq və təhlil edilməsi öz aktuallığını aydın şəkildə göstərir. Odur ki, tədqiqatın problemini Azərbaycan təsviri sənəti kontekstində Elmira Şahtaxtinskayanın yaradıcılığının öyrənilməsi kimi müəyyən etdik.

**Tədqiqatın obyekti və predmeti.** Tədqiqatın obyektini Xalq rəssamı Elmira Şahtaxtinskayanın müxtəlif mövzu və bədii ifadə vasitələrinə xas əsərləri təşkil edir. Rəssamın xüsusi və dövrü mətbuatda nəşr olunmuş əsərləri ilə bərabər, şəxsi kolleksiyalarda saxlanılan əsərləri tədqiqat obyekti bazasını xeyli genişləndirmişdir.

Tədqiqatın predmetini 1950-ci illərdən başlayaraq 90-cı illərə qədər Azərbaycan rəssamlığının inkişafında E.Şahtaxtinskayanın rolunu və yerini araşdırmaq, rəssamın yaradıcılığındakı yeni təmayülləri müəyyən edib və konkret nəzəri müddəalar təsbit etmək. E.Şahtaxtinskaya yaradıcılığını səciyyələndirən bədii xüsusiyyətlərin, yeni və orijinal ifadə vasitələrinin təhlili tədqiqat predmetinin qayəsini təşkil edir.

**Tədqiqatın məqsədi və vəzifələri.** Azərbaycan Xalq rəssamı Elmira Şahtaxtinskayanın yaradıcılığını sistemli təhlil edərək, rəssamın özünəməxsusluğunu, dəsti-xəttini, yaradıcılıq metodunu və mərhələlərini müəyyən etmək tədqiqatın əsas məqsədidir. Rəssamın yaradıcılıq xüsusiyyətlərini müəyyənləşdirərkən, ona həmdövr olan Azərbaycan incəsənəti kontekstini təhlil etmək tədqiqatın məqsədi kimi çıxış edir.

Elmira Şahtaxtinskaya yaradıcılığının həmdövr və müasir Azərbaycan incəsənəti kontektsində öyrənilməsi aşağıdakı vəzifələrin həllini nəzərdə tutur:

- Elmira Şahtaxtinskayanın yaradıcılığını sistemləşdirərək təsnif etmək;
- rəssamın indiyə qədər öyrənilməyən əsərlərini təhlil etmək;
- rəssamın yaradıcılığında Azərbaycan bədii ənənələrini və vətənpərvərlik ideyalarını təbliğ edən tabloları təhlil edib qiymətləndirmək;

- Elmira Şahtaxtinskaya yaradıcılığına müasir dövrün prizmasından yanaşmaq;

- E.Şahtaxtinskayanın həyat və yaradıcılıq məqamlarını müəyyənləşdirmək;

- E.Şahtaxtinskayanın plakatlarında yeni bədii forma axtarışlarını müəyyən etmək;

- rəssamın yaradıcılığında portret janrının özünəməxsusluğunu araşdırmaq;

- "Azərbaycan qədim mədəniyyət ölkəsidir" silsiləsində Təbriz miniatürü prinsiplərinin dirçəliş xüsusiyyətlərinini açıqlamaq;

- "Azərbaycan qədim mədəniyyət ölkəsidir" silsiləsinin tarixi və müasir obrazlarını təhlil etmək;

- E.Şahtaxtinskaya yaradıcılığının müasir Azərbaycan sənətşünaslıq elmində yerini müəyyənləşdirmək.

**Tədqiqatın metodları.** Metodoloji əsaslar kimi tarixi-mədəni və tarixi-bədii yanaşma üsuluna üstünlük verilib. Dissertasiya üzərində iş zamanı kompleksli metoddan istifadə edilmişdir, yəni əyani material əhatəli şəkildə təhlil olunmuşdur. Əsas əsərlər təhlil edilmiş, imkan daxilində bütün öyrənilən yaradıcılıq nümunələrinə yer ayrılmışdır. Əlavə olaraq, arxiv sənədləri araşdırılaraq təhlil olunmuş, mətbuatda ümumiləşdirilərək şərh edilmiş, müasir sənətşünaslıqla bağlı elmi-nəzəri ədəbiyyat öyrənilmişdir.

Tədqiqat işinin əsasını çoxşaxəli yaradıcılığının ayrı-ayrı bölmələrini xarakterizə edərək, bir çox əsərlərin təhlili təşkil edir. Tədqiqat işi yerinə yetirilərkən müasir sənətşünaslıqla bağlı elmi-nəzəri ədəbiyyat öyrənilmiş, arxiv sənədləri axtarılaraq təhlil olunmuş, rəssamın əsərlərinin nümayiş etdirildiyi sərgilərin kataloqlarından, Azərbaycan Milli İncəsənət Muzeyi, Nizami Gəncəvi adına Milli Azərbaycan Ədəbiyyatı Muzeyinin və Azərbaycan Dövlət Rəsm Qalereyasının arxivlərindən istifadə edilmiş, Elmira Şahtaxtinskayanın yaradıcılığı ilə bağlı mövcud əsərlərdən materiallar ümumiləşdirilərək şərh olunmuşdur.

Tədqiqatın metodoloji əsasını sənətşünaslıq təhlili təşkil edir. Bu proses zamanı ayrı-ayrı əsərlərin obraz-stilistik, bədii-stilistik və müqayisəli aspektləri üzə çıxarılır. Bu istiqamətdə həyata keçirilən təhlillər Elmira Şahtaxtinskayanın yaradıcılıq təcrübəsində tipoloji

və təkamül əsasında formalaşmış müxtəlif yaradıcı elementlərin daha da qabarıq şəkildə üzə çıxarılmasına imkan verir. Müqayisəli təhlil metodu Elmira Şahtaxtinskayanın yaradıcılığının yeni çərçivə və xüsusiyyətlərinin üzə çıxarılması baxımından əhəmiyyətli sayılır. Xronoloji prinsipə riayət edilməsi sənətkarın yaradıcılıq spesifikasında baş verən dəyişikliklərin izlənilməsi aspektindən əhəmiyyətlidir.

**Müdafiəyə çıxarılan əsas müddəalar:**

- E.Şahtaxtinskaya sovet plakat janrının bədii prinsiplərindən imtina etmişdir;
- Rəssam əsərlərində milli ruhun duyulacağı səviyyədə həssaslığın təlqininə çalışmışdır;
- E.Şahtaxtinskaya "Azərbaycan qədim mədəniyyət ölkəsidir" silsiləsində Təbriz miniatür məktəbinin ənənələrini yenidən canlandırmışdır;
- E.Şahtaxtinskaya plakatlarında qrafik sənətin ən yaxşı ənənələri əksini tapmışdır;
- E.Şahtaxtinskayanın təbiətin arxetipik obrazlarında hər bir element, hər bir detal mühitin ümumi obrazının açılmasında mühüm əhəmiyyət daşıyır.

**Tədqiqatın elmi yeniliyi** ilk növbədə ondan ibarətdir ki, elmi araşdırmalar zamanı Elmira Şahtaxtinskayanın indiyə qədər tədqiq olunmamış qrafik və plakat əsərləri təsvir və təhlil olunmuşdur. Burada eyni zamanda müxtəlif muzeylərdə, şəxsi fondlarda qorunan əsərlərin siyahısı hazırlanmışdır.

Tədqiqat işinin elmi yeniliyi aşağıdakı müddəalarda öz əksini tapır:

- tədqiqatda Azərbaycan təsviri incəsənət kontekstində Xalq rəssamı Elmira Şahtaxtinskayanın həyat və yaradıcılığına həsr olunmuş ümumiləşdirici, hərtərəfli nəzəri əsərin yaradılmasına cəhd edilmişdir;
- Elmira Şahtaxtinskayanın həyat və yaradıcılığı ilk dəfə olaraq dolğun və bütöv bir şəkildə Azərbaycan sənətşünaslığında monoqrafik tədqiqat obyekti kimi çıxış edir;
- Elmira Şahtaxtinskayanın yaradıcılığı ardıcıl tədqiq olunaraq sistemləşdirilmiş, yaradıcılığının mərhələləri müəyyən olunmuş və

nəticələr çıxarılmışdır;

- rəssamın əsərlərinin üslub, janr və icra texnikasına görə təsnifatı aparılmışdır;

- rəssamın plakat sahəsində yerinə yetirdiyi əsərlərinin bədii təsvir və təhlili verilmişdir;

- rəssamın portret janrında yerinə yetirdiyi əsərləri əhatəli tədqiq və təhlil olunmuşdur;

- Elmira Şahtaxtinskayanın fərdi üslub maneraya və bənzərsiz dəst-xəttə malik olan mənzərə əsərləri ilk dəfə olaraq təsnif və təhlil olunmuşdur.

**Tədqiqatın nəzəri və praktiki əhəmiyyəti.** Hazırki tədqiqat Azərbaycan incəsənət tarixini genişləndirərək təsviri sənətin ümumi inkişafında Azərbaycan Xalq rəssamı Elmira Şahtaxtinskaya yaradıcılığının rolunu, yerini və yaradıcılıq metodunu müəyyən edir. Tədqiqatın nəticələri və müddəaları Azərbaycan təsviri sənətinin zənginliyini, növ və janr müxtəlifliyi diapazonunu və yaradıcılıq üslublarını genişləndirmiş olur.

Tədqiqat rəssamlıq təmayüllü ali və orta ixtisas müəssisələrində rəssam və sənətşünas tələbələrə “Azərbaycan təsviri sənəti tarixi” mövzusunda xüsusi kurslar çərçivəsində tədris oluna bilər. Rəssamın yaradıcılıq təcrübəsinə aid müddəalar gənc rəssamlar üçün əməli tövsiyyələr rolunu oynaya bilər. Dissertasiya Elmira Şahtaxtinskayanın yaradıcılığı haqqında yazılmış elmi-tədqiqat işi kimi, bu sahədə çalışan və burada toxunulan problemlə maraqlanan geniş oxucu kütləsi üçün dəyərli mənbədir.

**Dissertasiyanın aprobasiyası tətbiqi.** Dissertasiya Azərbaycan Dövlət Rəssamlıq Akademiyasının “İncəsənət tarixi” kafedrasında yerinə yetirilmişdir. Tədqiqat işinin əsas məzmunu, elmi müddəa və nəticələri on məqalədə öz əksini tapmışdır.

**Dissertasiya işinin yerinə yetirildiyi təşkilatın adı.** Dissertasiya Azərbaycan Dövlət Rəssamlıq Akademiyasının “İncəsənət tarixi” kafedrasında yerinə yetirilmiş və kafedranın iclasında müzakirə olunmuşdur.

**Dissertasiyanın struktur bölmələrinin ayrılıqda həcmi qeyd olunmaqla dissertasiyanın işarə ilə ümumi həcmi.** Dissertasiya giriş, üç fəsil, yeddi yarımfəsil, nəticə və istifadə olunmuş ədəbiyyat

siyahısından ibarətdir. O cümlədən: giriş – 15.548, 1.1. – 18.346, 1.2. – 34.200, 1.3. – 25.860, 2.1. – 40.031, 2.2. – 19.961, 3.1. – 30.983, 3.2. – 29.941. Dissertasiyanın ümumi həcmi 226.616 simvoldan ibarətdir, nəticədə – 11.745. Araşdırmanın məzmununu əks etdirən illüstrasiyalar ayrı bir cilddə albom şəklində təqdim edilmişdir (dissertasiyaya əlavə kimi).

## İŞİN MƏZMUNU VƏ ƏSAS MÜDDƏALARI

Girişdə mövzunun aktuallığı və işlənmə səviyyəsi, məqsəd və vəzifələri, obyekti və predmeti, müdafiəyə çıxarılan əsas müddəalar, eləcə də işin elmi yeniliyi, nəzəri və praktiki əhəmiyyəti, aprobasiyası, strukturu və həcmi haqda məlumat verilir.

Dissertasiyanın "**Elmira Şahtaxtinskayanın yaradıcılığında yeni bədii ifadə vasitələri"** adlı **I fəslinin** ilk paraqrafı üzrə araşdırma zamanı Elmira Şahtaxtinskayanın həyat və yaradıcılıq məqamları müəyyənləşdirilərək aydınlaşdırılmışdır ki, rəssam 40 illik yaradıcılığı dövründə əsərlərində Azərbaycan bədii ənənələrinə sadiqlik nümayiş etdirmişdir. Bu yaradıcılıq eyni zamanda vətənpərvərlik ideyalarının təcəssümünü əks etdirərək yüksək bədii dəyərə malik sənət əsərlərinin meydana gəlməsinə zəmin yaratmışdır.

Qrafik rəsmlərin, akvarel və quaş texnikasında işlənmiş çoxsaylı silsilə əsərlərin müəllifi olan rəssam, demək olar ki, Azərbaycanın bütün bölgələrini qarış-qarış gəzmişdir. Onun Naxçıvan, Gəncə, Quba, Gədəbəy, Zaqatala, Şuşa və digər rayonların füsunkar təbiətinə həsr etdiyi tablolarında, təbiətdə baş verən ani dəyişiklikləri, bənzərsiz təbiət gözəlliklərini və dolğun həyat lövhələrini ən incə detallarınadək təsvir etməyə çalışmışdır. Buna misal olaraq, "Gecə mənzərəsi", "Bakı limanı", "Göy-göl", "Quba yaxınlığında mənzərə", "Qış mənzərəsi", "Qarlı dağlar", "Şuşa dağları", "Əsgəranda qala", "Dağ mənzərəsi", "Şəki yaxınlığında mənzərə" və digərlərini göstərmək olar.

Elmira Şahtaxtinskayanın əsərlərində bizim xalqın zəngin mənəvi dünyası, onun tutumlu estetikası, məişəti, adət-ənənələri,

həyat fəlsəfəsi və tarixi, əmək adamlarının, şairlərin və tarixi şəxsiyyətlərin obrazları, o cümlədən Azərbaycan təbiətinin valehedici gözəlliyi öz parlaq əksini tapmışdır. Bədii ifadənin realistik vasitələrindən istifadə edən rəssam öz əsərlərini böyük ustalıqla yaratmışdır. Onun əsərləri ifadə dilinin orijinallığı və fərdiliyi, monumentallığı və üslub reallığı ilə fərqlənir. Rəssamın yaradıcılığı, təsviri sənətimizin milli özünəməxsusluğunun öyrənilməsinin və yaradıcılıq baxımdan dərk olunmasının ən gözəl nümunəsidir.

Elmira Şahtaxtinskayanın əsərləri zamanın təzadlı axarında özünün ilkin bədii dəyərini qoruya bilib. Belə ki, cəmiyyət qarşısında öz böyük məsuliyyətini hiss edən rəssam bir qayda olaraq daha mühüm, aktual mövzuların axtarışında olmuşdur. Bu səbəbdən, yəni bu əsərlər tamamilə başqa bir ictimai-siyasi şəraitdə yaradılmasına baxmayaraq, onların əksəriyyəti bu gün üçün belə çox maraqlı və aktualdır.

Mürəkkəb inkişaf yolu keçmiş Azərbaycan incəsənət tarixinin inkişafında, Elmira Şahtaxtinskaya öz layiqli yerini tutmuş və dərin iz buraxmış istedadlı sənətkar olmuşdur. Onun yaradıcılıq irsi Azərbaycanın təsviri sənətinin inkişafında yalnız bədii deyil, həm də tarixi əhəmiyyət daşımaqdadır.

Elmira Şahtaxtinskayanın yaradıcılığında, ona çox yaxın və doğma olan milli elementlər olduqca güclü şəkildə özünü büruzə verir. O, uşaqlıq illərindən Azərbaycan dekorativ-tətbiqi sənətinin parlaq və əlvan koloritini duymuş, onun zəngin və çoxcəhətli ornamental üslubunu mənimsəmiş, Azərbaycan incəsənətinin özünəməxsus cəhətlərini öyrənmişdir. Əminliklə göstərə bilərik ki, onun parlaq dekorativ rəngkarlığı məhz Azərbaycan milli incəsənətinin ritmika və koloritindən qidalanmışdır.

**I fəslin "E.Şahtaxtinskayanın plakatlarında yeni bədii forma axtarışları"** adlı **ikinci paraqrafı** üzrə aparılan araşdırmalarda rəssamın plakatlarında yeni bədii forma axtarışları müəyyənləşdirildiyi zamanı bu sahədəki fəaliyyətinin ən səciyyəvi xüsusiyyətləri və onu digərlərindən fərqləndirən əsas cəhətin onun qrafik həllin sərhədlərini aşaraq, həmin əsərlərini daha çox rəngkarlıq manerasında icra etdiyini deməyə əsas verir. Yaşadığı

zaman və mühitin tələblərindən irəli gələrək rəssamın yaradıcılığının əsasən Sovetlər birliyində xalqların dostluğu, sülh və əmin-amanlığı ilə əlaqəli mövzular sovetlər birliyi zamanında böyük əhəmiyyət kəsb edən həmin siyasi mövzulu əsərlərin bu gün də öz aktuallığını itirmədiyini qeyd edə bilərik. Buna səbəb isə rəssamın birtərəfli mövqedən çıxış etməyərək ümumi sülhün təbliğinə, Vətən sevgisinə yönəli əsərlərlə tamaşaçılarının rəğbətini qazanmasıdır.

Bütün bunlarla yanaşı qeyd etmək lazımdır ki, rəssamın yaradıcılığına məxsus həmin plakatlar sadəcə bir mövzunu əhatə edərək yalnız siyasi xarakter daşımırdı. Araşdırma zamanı müəyyənləşdirildiyi kimi milliliyimizi təbliğ edən əsərlərin mövcudluğu Elmira Şahtaxtinskaya yaradıcılığının Azərbaycan bədii ənənələrinə və vətənpərvər ruha söykəndiyinin sübutudur.

Daha çox Azərbaycanın Böyük Vətən Müharibəsindəki əməyini, fəaliyyətini yüksək dəyərləndirən sənətkar hər zaman ümumsovetlər birliyindəki fəaliyyətinə baxmayaraq, Azərbaycan sevgisini daha üstün tutmuş, onun müharibə zamanı rolunu dəyərli əsərləri ilə işıqlandırmışdır.

Belə əsərlərdən olan plakatlarından birində "Azərbaycan Böyük Vətən Müharibəsinin əsas yanacaq bazası idi! Hər şey cəbhə üçün, hər şey qələbə üçün!" savaş zamanı qələbənin əsasında duran Azərbaycan neftinin əvəzsiz əhəmiyyətini olduqca maraqlı şəkildə vurğulamışdır.

N. Həbibov qeyd edir ki, "*Elmira Şahtaxtinskayanın plakatları zamanın hökmü, müasirlərimizin ən nəcib arzu və əməlləri ilə səsləşən dolğun və mənalı sənət əsərləridir. Dünyada sülh, əmin-amanlıq naminə təcavüzə, müharibə dəhşətlərinə qarşı kəskin etiraz motivləri həmin əsərlərin başlıca ideya məzmununu təşkil edir. İnsanın yaradıcı qüvvələlərinə pərəstiş ruhunda fırçaya alınan canlı, əyani, kəsərli plakat obrazları nikbin, həyatı təsdiqedici vüsətə malikdir*"[11].

Sovet Sosialist Azərbaycanının təbliğində E.Şahtaxtinskaya zəhmətkeş fəhlə sinfinin əməyini tərənnüm edən plakatlar yaratmışdır. Həmin əsərlərin dolğun və süjetli kompozisiya quruluşu sovet plakatında mövcud olan bədii prinsiplərdən kəskin surətdə

[11] Həbibov N. Qrafika sənətimizin tədqiqi. // "Kommunist". – 1971, 27 aprel. – s.7.

fərqlənirdi. Belə əsərlərindən olan tikintidə çalışanların zəhmətini dəyərləndirən plakatın dinamik quruluşu diqqəti cəlb edir. “Lənkəran ümumittifaq bağçadır” və yaxud “Donuzçuluğu inkişaf etdirək” şüarlı əsərlərində isə rəssam kənd təsərrüfatının inkişafını vurğulamışdır.

Müasir həyatın təməli olan biliyin, idmanın əhəmiyyətini vurğulayan rəssam bir çox plakatlarında dolğun kompozisiya quruluşu, təzadlı rəng həlli ilə əsərin emosional təsir gücünü böyük sənətkarlıqla yarada bilmişdir. Bunlara misal olaraq “Bilik həyatın qanadıdır!”, “Su idmanı ilə məşğul ol!”, “Kimya kənd təsərrüfatında!” kimi əsərlərini göstərmək olar.

E. Şahtaxtinskaya 1990-cı ildə ölkədə yaranmış vəziyyətin gərginliyini dünyada baş verən rüsvayçı siyasət kimi izah etmişdir. Bu güc siyasətinin – XX əsrin rüsvayçılığı olduğunu rəssam qanlı Yanvar hadisələrinin dəhşətinə həsr etmişdir. O, burada silahların, avtomatların boş səmaya tuşlanmış görüntüsünü ağ və qara rənglərlə həll etmişdir. Ümumiyyətlə, E. Şahtaxtinskaya çox zaman müharibəni, unudulmaz faciələri qara və bozun müxtəlif çalarlarında həll etməyə üstünlük vermişdir.

İstedadlı rəssamın plakat yaradıcılığında yeni bədii forma axtarışlarını müəyyən edərək qeyd etmək olar ki, Elmira Şahtaxtinskaya sovet məkanında mövcud olan plakat janrının bədii prinsiplərindən fərqli olaraq daha dolğun kompozisiya, təzadlı rəng həlli ilə onları rəngkarlıq manerasında həll etməyi məqsədəuyğun hesab etmişdir. Bununla yanaşı sovet Azərbaycanını təbliğ edən hər bir mövzu üzərində çalışdıqda belə milli ruhun duyulduğu sənət əsərlərinin meydana gəlməsinə zəmin yaratmışdır.

**Fəslin “E.Şahtaxtinskayanın yaradıcılığında portret janrının özünəməxsusluğu”** adlı **üçüncü paraqrafında** rəssamın portret yaradıcılığında psixologizmin əsas götürülməsi, şəxsiyyət və obrazlılıq anlayışının mükəmməl təqdimatının verilməsi, təsvir edəcəyi simanın həyati mövqeyini əsərində düzgün, dəqiq və dərin ifadələrlə müəyyənləşdirmək onun bu istiqamətdəki fəaliyyətinin əsas xüsusiyyətlərini açıqlayır.

E.Şahtaxtinskayanın yaradıcılığında portret janrının özünəməxsusluğunu araşdırarkən rəssamın portretlərində əsasən

insani münasibətlərin, fərqli obrazların xarakterinə məxsus hisslərin, arzuların, düşüncələrin bədii əksinin canlandırılmasında onların sifət cizgilərinin xırda detallarına qədər dəqiqliklə verilməsinin şahidi oluruq. Həmin xarakterikliyi yaradarkən obrazı dəyərləndirmək E.Şahtaxtinskayanın sənətkar üslubu, yaradıcılıq metodu ilə yanaşı, eyni zamanda onun dünyagörüşündən də irəli gəlirdi. Bu mənada müxtəlif mövqeli insanların portretlərində onlara verdiyi dəyər, onun həyati ambisiyasının qiymətləndirilməsi psixologizmin dərin qatlara doğru verilməsi ilə şərtlənir.

Səttar Bəhlulzadənin obrazına həsr edilmiş portretdə Elmira Şahtaxtinskayanın istedadı, onun dünyagörüşü, həyata baxışı, süjet və kompozisiya qurmaq ustalığı, qəhrəmanın xarakterini açmaq bacarığı, poetik üslubunun mühüm əhəmiyyət kəsb etməsi bir daha öz təsdiqini tapmışdır. Rəssamı formalaşdıran yaradıcı mühitin içində olması sənətkar dünyasına həsr edilmiş portretdə özünü xüsusilə biruzə verir.

Elmira Şahtaxtinskayanın portret əsərlərində tünd rənglər, sərt cizgilər bu istiqamətdə olan yaradıcılığının əsas ifadə vasitəsidir. Təsvir obyektinin xarici ciddiliyini təqdim edən sərt rənglərlə, daxildə gizlənən incə ruhun cizgilərlə xüsusi təsvir formasında təqdimi bir-birini tamamlayaraq rəssamın əsərdə qarşısına qoyduğu məqsədi reallaşdırır. Turan Cavidə həsr edilmiş əsəri də bu qəbildən hesab etmək olar. Əsərdə dahi dramaturq Hüseyn Cavidin qızı Turan xanımın simasındakı səmimiyyət, səbr, təvazökarlıq rəssamın yüksək həssaslığı ilə həyata keçirilmişdir.

Rəssam zamanla portretlərində ona yaxın dostların, qohumların portretləri ilə yanaşı, sadəcə sənətkarı cəlb edən insanların obrazlarının üzərində işləyib. Tanınmayan insanların mənəvi aləmi, onların psixoloji vəziyyəti, nəhayət, xarici görünüşü fərqli formalarla tərənnüm edilməyə başlanılır. Rəssamın portretlərinin təsir gücünü əsasən onun məxsus olduğu milli dəyərlərin, cizgilərin verilməsi daha da artırırdı. Bu tipli əsərlərindən olan Buxara rəsmləri silsiləsinə daxil olan qadın portreti özünün dərin ekspressiyası ilə diqqəti çəkir. Doğrudur, portretdə emosionallığın əksinə olaraq sakit və səbirli, təvazökar daxili dünyanın tərənnümü verilmişdir. Lakin hisslərin, baxışların

ifadəsininin xüsusi gücü xarakterin fərdiyyətini, onun milli mənsubiyyətinin səciyyəviliyi ilə yanaşı, xarakterin, tipin özünəməxsusluğunu tərənnüm edir. Portretdə sadə bir qadının obraz təsviri ilə hisslərin qabarıq ifadəsini verən rəssam səfər etdiyi ölkədə onu cəlb edən sadəcə təbiət, şəhər və ya kənd mənzərəsi, mədəniyyəti deyil, insanlarının yaşam tərzi, onları bir xalq kimi ümumiləşdirən səciyyəvi xüsusiyyətlər də cəlb etmişdir. Bu onun sənətkarlıq xüsusiyyətlərinin dərin qatlara dayanan incə məqamlara qədər diqqətli yanaşmasının göstəricisidir.

Dissertasiyanın "**Elmira Şahtaxtinskayanın "Azərbaycan qədim mədəniyyət ölkəsidir" silsiləsində Təbriz miniatürü prinsiplərinin dirçəlişi**" adlı **II fəslin birinci paraqrafı "Azərbaycan qədim mədəniyyət ölkəsidir" silsiləsinin tarixi obrazları"** adlanır. Araşdırma həmin əsərləri fərqləndirən xüsusiyyət kimi mövcud plakat yaradıcılığından fərqli olaraq yeni formada icra edilməsini iddia etməyə imkan verir. Təbriz miniatür ənənələrinin tətbiqi rəssamın bu sahə üzrə icra etdiyi böyük yenilik kimi dəyərləndirilir. E.Şahtaxtinskaya qeyd edilən istiqamət üzrə əsərlərini akvarel və ya quaşla yaradaraq onların psixoloji portret tərzini yüksək məharətlə həll etmişdir.

E. Şahtaxtinskayanın "Azərbaycan qədim mədəniyyət ölkəsidir" silsiləsində Təbriz miniatürü prinsiplərinin dirçəlişi üzrə ayrılmış tarixi obrazların təhlilinə həsr edilən fəsil üzrə gəlinmiş nəticə kimi silsiləyə daxil olan 30-dan çox plakatda tarixi şəxsiyyətlərin xarakterindən, yaradıcı mövqeyindən doğan lirik-romantik, duyğulu formaların verilməsi həmin əsərlərin əsasını təşkil edir. Bu mənada orta əsrlər əsasən Azərbaycanın elm, ədəbiyyat, incəsənət xadimlərinin özünəməxsus şəkildə işıqlandırılması Şahtaxtinskayanın yüksək sənətkarlıq xüsusiyyətlərini müəyyənləşdirir. Sənətkar bu əsərlərin yaradılmasında yüksək intellekt, incəsənət tarixinin ən incə məqamlarının bədii ifadəsini nümayiş etdirirdi.

Misal olaraq, Əlişir Nəvainin 550 illik yubileyinə həsr edilmiş plakatını göstərmək olar ki, burada mərkəzdə özbək əsilli filosofun iri formalı fiquru oturmuş halda təsvir edilmişdir. Rəssam filosofun xarakterindəki müdrikliyi daha aydın formada vermək üçün onun ağ

əmmaməli simasındakı ciddiliyi xüsusilə ön plana çəkmişdir. Bu mənada çatılmış qaşlar, mənalı cizgilər, düşüncəli nəzərlər, əlində kitab tutmuş filosofun baxışlarını daha uzaqlara, dərin daxili dünyasından qaynaqlanan düşüncələr aləminə dikilmiş formada təqdim edən rəssam, onun xarakterik xüsusiyyətlərini əsərlərinin, yaradıcılığının əsasında müəyyənləşdirərək həll etmişdir. Böyük ideyalarla yaşayan, xalqın siyasi həyatında xüsusi xidmətlər göstərən Nəvainin rolunu bu qədər müsbət qiymətləndirmək, dəyərini göstərmək üçün rəssam müxtəlif miniatür təsvirlərdən, eləcə də Şərq ornamentasiyasından yüksək sənətkarlıq bacarığı ilə bəhrələnmişdir.

İmadəddin Nəsiminin 600 illiyinə həsr edilmiş portreti isə özünün mütəfəkkirə olan şəxsi münasibətinin, onun sənətinə sevgisinin yüksək bədii həlli ilə diqqəti cəlb edir. Rəssam burada Nəsiminin tarixdə əbədi yaşayan daş heykəlini yaratmaqla məqsədi yüksək təsvir formaları ilə izah edə bilmişdir. Mavi fonun üərindən axan süd rəngli buludların üzərindən şairin daş heykəlinin tərənnümü olduqca lirik-romantik ifadələrlə tamaşaçıya çatdırılır. Plakatda şrift seçimində belə uyğun tərtibat – onun heykəllə eyni tonda daş fakturanın bütün tablonun mükəmməl kompozsiyaya tabe olmasının göstəricisidir. Rəssam burada tarixin, əsrlərin qovşağında belə filosofun hər zaman yaşayan fikirlərini simvolik şəkildə ifadə etmişdir

Tarixi simaların işıqlı obrazını daha qabarıq şəkildə önə çıxarmaq üçün Şahtaxtinskaya əsasən fon olaraq qara rəngdən istifadə edirdi. Bunu onun Nəsirəddin Tusi, Əcəmi Naxçıvani, Soltan Məhəmməd, Bəhmənyar ibn Mərzban kimi görkəmli şəxsiyyətlərə həsr edilmiş plakat əsərlərində görmək mümkündür.

Plakatlar arasında əhəmiyyətə malik əsərlərdən biri də Soltan Məhəmmədə həsr olunmuşdur. Əsərin maraqlı tərəfi Soltan Məhəmmədin məşhur “Kitab oxuyan gənc oğlan” əsərinə sanki “nəzirə” olaraq yaradılmasındadır. Burada o Soltan Məhəmmədi məhz onun öz əsərindəki obrazla və oxşar səhnə formasında verməklə rəssamın obraz tərənnümünə deyil, onun yaradıcılıq dünyasınının təsvirinə yönəli təsvir forması ilə ifadə etmişdir. Tünd yaşıl fonda Təbriz miniatür üslubunda verilmiş əsərdə Soltan

Məhəmmədin gənc olmasına baxmayaraq, müdrik siması diqqəti cəlb edir.

Rəssam burada Soltan Məhəmmədin məşhur "Kitab oxuyan gənc oğlan" miniatürünün bədii ənənələrindən istifadə edərək plakatda onun yaradıcılığını məxsusi tərzdə işıqlandırmağı məqsədəuyğun hesab etmişdir.

**II Fəslin "Azərbaycan qədim mədəniyyət ölkəsidir" silsiləsinin müasir obrazları"na** həsr edilmiş **ikinci paraqrafı** üzrə araşdırma zamanı xarakterlərin açılmasında rəssamın dərin psixologizminin verilməsində onun qrafik sərhədləri aşaraq, həmin əsərləri rəngkarlıq tərzində icra etməsi öz təsdiqini tapır. Məsələn, görkəmli rəssam Səttar Bəhlulzadənin xatirəsinə həsr edilmiş plakatda ciddiliklə yanaşı, daxili lirizminin bədii təzahürü öz həllini tapmışdır. İfadə edilmiş təsvirdə obrazın profildən görünüşü daha inandırıcıdır. Əsərdə hərarətli ləkənin yaratdığı portret soyuq fonda daha yüksək bədii keyfiyyətləri ilə tamaşaçını cəlb edir.

1975-ci ildə böyük Azərbaycan musiqişünas-alimi Üzeyir Hacıbəyovun 90 illiyinə həsr edilmiş plakatda rəssam onun uğurlu kompozisiya nümunəsini həyata keçirməyə nail olmuşdur. Möhtəşəm musiqi əsərinin ahəngdar notlarının tərənnümünü rəssam qara fon üzərində qırmızı, sarı, narıncı tonların axarlı çalarları ilə böyük ustalıqla yaratmışdır. Dövrün ümumi vətən anlayışına uyğun olaraq alt yazıda verilmiş "Üzeyir Hacıbəyov. Klassik Sovet musiqisi" sözləri əsərin optik anlayışı ilə yanaşı, onun həm də məzmunun oxunmasını təmin etmişdir. Bu yazıların şrift seçimi də notları xatırladan qarışıq formada və yuxarı hissənin rəng həllinə uyğun həyata keçirilmişdir.

Görkəmli şair Səməd Vurğunun 70 illiyinə həsr edilmiş plakatda rəssam onun öndən bir qədər yana baxan simasını olduqca düşüncəli tərzdə ifadə etmişdir. Təbiətin mavi, yaşıl, sarı rənglərinin üzərindən qara tonun ştrixləri ilə yaradılmış portret şairin lirik dünyasından doğan abu-havanı bütün varlığı ilə əsərə hopdurur. Sadə, lakonik kompozisiya quruluşunun təqdim etdiyi böyük məna sənətkarlığın yüksək məharətini ifadə edir. Səməd Vurğunun qalın dalğalı saçlarının dalğalanaraq buludlara qarışmasını E.Şahtaxtinskaya şair dünyasının təbiətə bağlı saf niyyətlərinin,

hisslərinin duyğulu bədii tərənnümünün tapılmasında uğurla həyata keçirmişdir.

N. Həbibov qeyd edir ki, "*Elmira Şahtaxtinskaya müasirlərimizin əmək fədakarlığını həmişə məhəbbətlə fırçaya almış, pambıqçılarımıza, bağbanlarımıza, çobanlarımıza, taxılçılarımıza, eləcə də sənaye ocaqlarında çalışan zəhmət adamlarımıza bir sıra qiymətli plakatlar həsr etmişdir. Sovet Azərbaycan plakatı sənətinin bu tükənməz mövzusuna sadiq olan rəssam yeni əsərlərində də maddi sərvətlər yaradan əmək qəhrəmanlarını şöhrətləndirir*"[12].

Bu dövrün bir çox plakatçı rəssamlarının yaradıcılığına məxsus səciyyəvi xüsusiyyət onların nəzər nöqtələrinin çoxluğu, miqyas müxtəlifliyi, ön plandan dərinliyə gözlənilməz sıçrayışları xoşlamalaları gerçəkliyini nağıl fantaziyası ilə, analoji təzahürlərlə yanaşı birbaşa nümayiş etdirməyə üstünlük vermələrindən ibarət idi. Lakin E.Şahtaxtinskaya yaratdığı plakatlarında obrazın daha real tərənnümünə can ataraq, onların psixoloji xarakterinin verilməsində obrazın xüsusiyyətinin açılışına xüsusi rəngkarlıq tərzində nail olurdu. Rəssam tarixi şəxsiyyətlərin obrazlarına müraciət edərkən əksər hallarda portretlə peyzajın məntiqi vəhdətinə, kompozisiyada bir komponentin digərini tamamlamasına prinsipial şəkildə yanaşmışdır.

Dissertasiyanın "**Xalq rəssamı Elmira Şahtaxtinskayanın yaradıcılığında mənzərə janrı**" adlı **III fəslin birinci paraqrafı** "**Rəssamın yaradıcılığında realistik mənzərələr**" adlanır. Rəssamın realistik mənzərə janrı üzrə fəaliyyətinin araşdırılması zamanı müəyyənləşmişdir ki, onun istər respublikamızın rayonlarında yaradıcılıq ezamiyyətlərində olduğu zaman, istərsə də xarici səfərləri zamanı naturadan etdiyi etüdləri sənətinin bütövlüyünü, tamlığını, müəyyənləşdirdiyi yaradıcı istiqaməti aydınlaşdırır. Həmin səfərlər zamanı, eləcə də respublikamızın paytaxtı Bakıya həsr etdiyi tablolarında çox zaman mənzərənin realistik görüntüsünü versə də, bunu ən lirik formalarla, yaradıcılığın ən incə məqamları ilə həyata keçirmişdir.

Xalq rəssamı yaradıcılığına məxsus realistik mənzərələrində əsasən quaş və akvarellə işləyərək mənzərənin ümumi xarakterinin

---

[12] Həbibov N. Mənalı, əlvan plakatlar. // "Kommunist". – 1976, 8 aprel – s. 8.

açılması ilə konkret fikir izahı verməyə çalışmışdır. Bunun üçün çox zaman mürəkkəb elementlərdən uzaq realistik mənzərə təsvirini canlandırmaqla romantik, lirik hisslərin tərənnümü ilə əsərin daha aydın qavranılmasına imkan yaradan rakursdan onu təsvirə almışdır. Əsasən Bakıya həsr edilən tablolarındakı təqdim edilmiş həssaslıq sanki insanın özü-özü ilə və yaxud ən yaxın sirdaşı ilə baş-başa qalma arzusunun gerçəkləşdiyi anın təqdimidir.

E. Şahtaxtinskaya Bakının müxtəlif küçə və parklarının, sahilin real görünüşlərini canlandırmaqla yanaşı, eyni zamanda burada həssas hisslərini, sevgisini də əsərə köçürmüşdür. Sadə məkan təsvirçiliyindən uzaq lirik rəng həlli, daha çox həssas anların təqdimi əsərlərin əhəmiyyətini tamaşaçı qarşısında təsdiqləyir. Məsələn, "Bakı. Xəyala qapılanlar", "Gecə mənzərəsi. Bakı", "Bakı limanında", "Minarə ilə mənzərə. Bakı", "Bakıda qış", "Liman. Bakı" və bu kimi digər əsərlərində rəssam məkana aid daha həssas, romantik anları tutaraq, şəhərin bu şəkildə tablolarında canlandırılmasını gözlə görünən mühit anlayışı ilə yanaşı, ona olan münasibəti, romantikanı da önə çəkmişdir. Məkan daxilində dəyişməyən, sabit mühit təsvirinin fərqli rakurslardan adi təsvirçiliyi ilə kifayətlənməyi yaradıcılığı üçün məhdud hesab edərək, saatın təzahürlərinə görə dəyişən eyni məkan təəssüratını rəssam fərqli kompozisiya quruluşu, rəng həlli, bəzən dinamik, bəzən isə sakit rəng çalarları ilə həyata keçirmişdir.

E. Şahtaxtinskayanın Azərbaycanın bölgələrində yaradıcılıq ezamiyyətlərində yaratmış mənzərələri sırf real təsvirçiliyin deyil, rəssam yaradıcılığının yüksək bədii təxəyyülünün əksidir. Belə əsərlərindən olan "Göygöl", "Qış mənzərəsi. Gədəbəy", "Əsgəranda qala", "Dağ mənzərəsi. Qax", "Şəki yaxınlığında mənzərə" adlı mənzərələr təsvirinin real görüntüsünü olduqca maraqlı formalarla tamaşaçısına çatdırır.

E. Şahtaxtinskayanın xarici səfərlər zamanı onun həmin şəhərlərin təbiətinə, mənzərəsinə, memarlığına həsr edilmiş real mənzərələri vardır ki, həmin əsərlərin hər biri öz canlılığı, real ifadə formaları ilə sanki həmin yerlərə tamaşaçısını səyahət etdirir, xoş təəssürat yaradır. Belə əsərlərindən "Buxara", "Səmərqənd. Şahı-Zində", "Nesebr", "Sazopol", "Stokholm" və digər xarici ölkə

şəhərlərinin ümumi təəssüratını yaradacaq maraqlı bitkin kompozisiyaya məxsus sənət əsərləri diqqət çəkir.

Sənətşünas Z.Balaşov qeyd edir ki, "*Elmira Şahtaxtinskayanın plakat əsərlərindən başqa maraqlı sulu boya, qrafika, tempera və s. ilə çəkilmiş rəsmləri də mövcuddur. Elmira Şahtaxtinskaya təbiəti olduqca çox sevir. Azərbaycan təbiətinin nadir gözəlliyinə həmişə heyranlıqla baxır. O, bu mövzuda lirik tərzdə mənzərə əsərləri yaratmışdır*"[13].

Nəticə olaraq qeyd etmək olar ki, bəzən məkanın sükutunu, bəzən isə dinamizmini əsərin xarakterindən irəli gələrək çox zaman təzadlı rənglərin uyğun keçidi ilə, bəzən isə yaxın rəng tonları ilə həll edən istedadlı rəssam təbiətin real görünüşünü sadəcə adi təsvir formasında deyil, onun həssas anlarını, duyğularının tərənnümünü ifadə etmişdir.

**III Fəslin "E.Şahtaxtinskayanın yaradıcılığında təbiətin arxetipik obrazları"** adlı **ikinci paraqrafında** qeyd olunur ki, rəssam hər bir mənzərənin əsasında dayanan xarakterik xüsusiyyətləri məharətlə, eləcə də yüksək estetik zövqlə, lirik-romantik ifadə vasitələri ilə həyata keçirmişdir. Bir çox hallarda təbiətin öz ilkin fomasında, insan və onun əl izlərinin istifadəsi olmadan, lirik, nağıl aləminə bənzər mifik formalarla arxetipik obrazları maraq doğurur. Belə əsərlərdən "Ağaclar", "Meşə" kimi silsilə qrafik tabloları öz lirik-romantik tərənnümü ilə tamaşaçısını özünə cəlb edir. Bu istiqamət üzrə fəaliyyətində təbiətin sırf özünün obrazı mənzərədəki möhtəşəmliklə yanaşı saflığı, məsumluğu real şəkildə ifadə etməyə nail olmuşdur. Burada əsas olanı sadəcə önə çəkmək deyil, tablonun bütün planında yerləşdirmək E.Şahtaxtinskayanın bu qəbildən olan sənət əsərlərinin başlıca xüsusiyyətidir.

E.Şahtaxtinskayanın yaradıcılığında təbiətin arxetipik obrazlarını verərkən bir çox hallarda gərgin dramatizmin hökm sürdüyü tablolarla yanaşı, rəssamın dərin fəlsəfi düşüncəsini üzə çıxaran geniş izahlı əsərlərin, eyni zamanda incə ruhundan qaynaqlanan, estetikliyi və gözəlliyi tərənnüm edən rəngarəng təbiət

---

[13] Balaşov Z. Mahir plakatçı rəssam. // – Bakı: "Azərbaycan qadını" jurnalı, – 1984. №11, – s. 5.

mənzərələrinin də olduğu öz təsdiqini tapır. Belə əsərlərin hər birində rəssam gözünün qavradığını olduğu kimi materiala köçürmür, hər bir əsərində təbiətin və elementlərin əlaqələndirilməsini, onların obrazlaşdırılmasını əsas hesab etmişdir.

Sovetlər birliyində rejimin tələb etdiyi yaradıcılıq prinsipinə arxalanmasına baxmayaraq E.Şahtaxtinskayanın milli köklərə bağlılığı onun dərin məna izahı tələb edən sənətkarlıq xüsusiyyətlərində öz təsdiqini tapır.

Belə əsərlərindən olan 1988-ci ildə yaratdığı "Şamaxı yaxınlığında Alçalı pir" qrafik tablosunun adını xüsusilə qeyd etmək olar. Əsərdə qalın iri gövdənin tərənnümü verilmişdir. Pirin tərənnümünü əks etdirən təsvir vasitələrinə yer verməyən rəssamın mövzunun seçilməsində və təsvir formasının məğzində qədim köklərdən gələn inanc, xalq düşüncəsinin ifadə edilməsi durur. Rəssam burada gövdənin iri hissələrlə buruları bir-birinə dolanmasını, eyni kökdən çıxaraq kənarlara yayılmasını məcazi təsvir dili ilə tamaşaçısına çatdırmışdır. Təbii ki, bu adi bir təsvir forması deyil, geniş izaha xas bədii ifadə tərzidir.

"Nardaranda XIV əsr hamamı" qrafik tablosunda məkan və mühit xarakterinin açılışında E.Şahtaxtinskayanın bir qayda olaraq ağac elementinə müraciət etməsi onun istənilən mənzərə tərənnümündə məkan və zaman əlaqələndirməsini sırf memarlıq elementlərinin real tərənnümü ilə deyil, onun obraz yaratma prinsipi ilə həyata keçirilməsini deməyə əsas verir. Bu obrazlılığın ağacın bütün canlı varlığın əsasında dayanmasına arxalanan mifoloji düşüncə tərzi ilə əlaqələndirilməsi haqqında təfəkkürü bir daha yada salaraq qeyd edək ki, sənətkarın bu qəbildən olan yaradıcılığı dərin məna izahı ilə tamaşaçısını özünə cəlb edir. Belə ki, iri ağacın öz gövdəsi ilə hamam qapısının qədim formasının qarşısında verilməsi rəssamın məqsədini təsdiqləyir.

Sənətşünas Gülrəna Mirzə Qacar qeyd edir ki, "*Elmira Şahtaxtinskayanın "Əncir ağacı", "Qoca tut", "Alçalı pir" və başqa mənzərə qəhrəmanlarının yüz illərlə yaşı vardır. Həmçinin "Zuğulba qayaları", "İlandağ", "Sınıq-qala", "Əsgəran", "Azıx mağarası" mənzərələri də uzaq keçmişlərdən xəbər verir. Bu mənzərələrin gözəl koloritindən mütləq danışmaq lazımdır. Çünki onlar öz rəngarəng*

*aurası ilə insanı sehirləyir. Rəssamın sevdiyi rənglər qamması daha da təkminləşir, incələşir, klassik Azərbaycan miniatürü Şahtaxtinskaya yaradıcılığını qidalandıran tükənməz bulaqdır*”[14].

Beləliklə, Elmira Şahtaxtinskaya hər bir elementin, hər bir detalın tərənnümündə mühitin ümumi obrazının açılmasında əhəmiyyət daşımasını təsdiq etmişdir.

**Nəticədə** dissertasiyanın əsas müddəaları yekunlaşdırılmışdır:

1. E.Şahtaxtinskaya sovet plakat janrının bədii prinsiplərindən imtina edərək yeni forma axtarışları üzərindəki yaradıcılığında dolğun kompozisiya, təzadlı rəng həlli ilə onları rəngkarlıq manerasında həll etməyə üstünlük vermişdir. Eləcə də sovet rejiminin tələblərindən irəli gələn mövzular üzərində çalışdıqda belə milli ruhun duyulacağı səviyyədə həssaslığın təlqininə çalışmışdır.

2. Xalq rəssamı E. Şahtaxtinskayanın portretləri ilk öncə duyğulandırıcı rəng əlvanlığı ilə diqqəti çəkir. Portret əsərlərində rəngin plastik imkanlarını nümayiş etdirməyə hər zaman nail olan rəssam obrazların tərənnümündə, onların daxili aləminin açılmasında psixoloji təsir gücünə malik dərin bələdçilik, mövcud mühit haqqında müşahidəçilik göstərərək həmin tabloların yüksək səviyyədə təsirli tərənnümünə nail olmuşdur.

3. E. Şahtaxtinskaya “Azərbaycan qədim mədəniyyət ölkəsidir” silsiləsinin tarixi obrazlarına həsr etdiyi tablolarında əsasən akvarel və quaşla yaratdığı əsərlərində plakat janrının dərinlik, perspektiv görüntüsünü rədd etməsi, plastik yapmadan yan keçməsi, bədən formalarına şübhə ilə yanaşması, ümumiləşdirilmiş kompozisiya, bir neçə enli rəngli səthə, kontur xətlərinə üstünlük verməsi prinsiplərindən imtina etmiş, özünün yeni üslub xüsusiyyətləri ilə Təbriz miniatür məktəbinin ənənələrini bu sahədəki fəaliyyətində yenidən canlandırmışdır.

4. E.Şahtaxtinskaya bütün plakatlarında dəqiq cizgilər, məqsədyönlü kompozisiya, ifadəli rənglər və şriftlər verməklə əsərlərin estetik təsirini daha da artırmışdır. Mədəni-maarif baxımından aktual mövzuda çəkilmiş bütün plakatlarında da rəssam lazımi rəssamlıq mədəniyyətinə malik sənətkarlıq səmtindən çıxış

---

[14] Qacar G. Elmira Şahtaxtinskaya / G.Qacar. – Bakı: XXI Yeni Nəşrlər Evi, – 2001. – s. 105.

etmişdir. O, aktuallığı və mükəmməl bədii formaları ilə fərqlənən plakatlarında qrafik sənətin ən yaxşı ənənələrindən ustalıqla yararlanmağa çalışmışdır.

5. Bir çox hallarda rəssam məkanın sükutunu, bəzən isə dinamizmini əsərin xarakterindən irəli gələrək çox zaman təzadlı rənglərin uyğun keçidi, bəzən isə yaxın rəng tonları ilə həll edərək təbiətin real görünüşünü sadəcə adi təsvir formasında deyil, onun həssas anlarının, duyğularının tərənnümü ilə ifadə etmişdir.

6. E.Şahtaxtinskaya təbiətin arxetipik obrazlarını yaradarkən hər bir elementin, hər bir detalın tərənnümündə onu mühitin ümumi obrazının açılmasında əhəmiyyət daşımasını təsdiq etmişdir.

**Mövzu ilə bağlı müəllif tərəfindən aşağıdakı məqalələr dərc edilib:**

1. Жанр плаката в творчестве народного художника Эльмира Шахтахтинской // «Университет, открывающий и преобразующий мир. Научные исследо-вания в сфере гуманитарных наук: открытия XXI века». Мат. VII Межд. научно-практической конференции 3-4 октября 2018, Пятыгорск с. 88-92.
2. Elmira Sahtaxtinskayanın yaradıcılığında təbiətin arxetipik obrazları // «Elmi əsərlər» Azərbaycan Dövlət Mədəniyyət və incəsənət Universiteti. №25. Bakı 2018, s.253-258.
3. Xalq Rəssamı Elmira Şahtaxtinskayanın yaradıcılığında portret janrının özünəməxsusluğu // "Sivilizasiya". elmi-nəzəri jurnal. Bakı Avrasiya Universiteti №3 Bakı 2018, s.200-206.
4. Elmira Şahtaxtinskayanın yaradıclığında Bakı mənzərələrinin bədii cəhətləri // "Axtarışlar" AMEA-nın Naxçıvan bölməsi İncəsənət, Dil və Ədəbiyyat İnstitutu. №4 (30) Naxçıvan 2018, s.199-123.
5. "Azərbaycan qədim mədəniyyət ölkəsidir" silsiləsinin müasir obrazları // "Mədəniyyət dünyası" Azərbaycan Dövlət Mədəniyyət və İncəsənət Universiteti. XXXV. Bakı 2018, s.183-188.
6. Произведения с историческими образами из цикла "Азербайджан страна древней культуры" Эльмира Шахтахтинской // Paradigmata poznani – Paradigms of knowledge. Academia Rerum Civilium – University of Political and Social Sciences. № 4, 2019, c.100-105.
7. Xalq rəssamı Elmira Şahtaxtinskayanın yaradıcılığında realistik mənzərələr // Azərbaycan Dövlət Mədəniyyət və İncəsənət Universiteti. Elm, mədəniyyət və incəsənətin qarşılıqlı əlaqəsi və müasir cəmiyyətin inkişafında rolu III Respublika elmi-nəzəri konfransı. Bakı 2019, s.153-159.
8. Xalq rəssamı Elmira Şahtaxtinskayanın yaradıcılıq nəaliyyətləri // Azərbaycan elminin və təhsilinin müasir problemləri mövzusunda Beynəlxalq Elmi Konfrans materialı 25 may 2019-cu il, Qazax şəhəri, s. 398-402.

9. Azərbaycanın Xalq rəssamı Elmira Şahtaxtinskayanın yaradıcılığında müharibə mövzusu // AMEA-nın Naxçıvan bölməsi İncəsənət, Dil və Ədəbiyyat İnstitutu. Axtarışlar №4 (38) Naxçıvan, "Tusi" – 2020, cild 13, s.129-133.
10. Воплощение патриотических идей в творчестве народного художника Азербайджана Эльмиры Шахтахтинской // "Colloquim-journal" Wydawca "Interdruk" Poland, Warszawa. № 13 (100). 2021. с. 7 -11.

Dissertasiyanın müdafiəsi 16 mart 2022-ci il tarixində saat 11:00-da Azərbaycan Dövlət Rəssamlıq Akademiyasının nəzdində fəaliyyət göstərən FD 2.34 Dissertasiya şurasının iclasında keçiriləcək.

Ünvan: Azərbaycan Dövlət Rəssamlıq Akademiyası, AZ 1029, Bakı şəhəri, Heydər Əliyev prospekti 26

Dissertasiya ilə Azərbaycan Dövlət Rəssamlıq Akademiyasının kitabxanasında tanış olmaq mümkündür.

Dissertasiya və avtoreferatın elektron versiyaları Azərbaycan Dövlət Rəssamlıq Akademiyasının www.azra.edu.az rəsmi internet saytında yerləşdirilmişdir.

Avtoreferat 15 fevral 2022-ci il tarixində zəruri ünvanlara göndərilmişdir.

Çapa imzalanıb: 07 fevral 2022
Kağızın formatı: A5
Həcm:  39940
Tiraj: 100